# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## YAP Sədrinin müavini Tahir Budaqov Türkiyədə səfərdə olub




3

№ 232 (7400)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

17 dekabr 2025-ci il.
Qiyməti 60 qəpik

# Humanist siyasətin növbəti nümunəsi!

Amnistiya aktının ümumilikdə 20 mindən çox şəxsə şamil ediləcəyi gözlənilir



2

# Avropa İttifaqı Ermənistana "əl uzadır" - əsas məqsəd nədir?



6

## Bakıdakı yol tıxaclarına çarə nədir?



8

## Ərzaq səbətində ən çox bahalaşan məhsullar...



5

## Media savadsızlığı nələrə səbəb olur?



7

## Böyük AMNİSTİYA - 20 mindən çox insan üçün azadlıq şansı...



4

## Haradasan, ay qonşu?..



3

# Humanist siyasətin növbəti nümunəsi!

## Amnistiya aktının ümumilikdə 20 mindən çox şəxsə şamil ediləcəyi gözlənilir



***Azərbaycan Prezidenti "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan olunması təşəbbüsünü irəli sürüb. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi iradəsi və xilaskarlıq missiyası sayəsində müstəqil Azərbaycan dövləti qurulub möhkəmlənmiş, Ulu Öndərin rəhbərliyi ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası müasir dövlətçiliyimizin hüquqi təməlini yaratmışdır.***

Ulu Öndərin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və uzaqgörən strategiyası, sarsılmaz liderliyi və Silahlı Qüvvələrimizin misilsiz qəhrəmanlığı sayəsində Vətən müharibəsində qazandığımız Zəfər və lokal xarakterli antiterror əməliyyatı nəticəsində suverenliyimiz və ərazi bütövlüyümüz tam bərpa edilmişdir. Suverenliyimizin bərpasının, Konstitusiyamızın ali hüquqi qüvvəsinin ölkəmizin bütün ərazilərində bərqərar olunmasının xalqımızın ən böyük tarixi qələbəsi olduğunu nəzərə alaraq, humanizm və mərhəmət ənənələrinə sadiq qalaraq, cəzadan azad etmənin tərbiyəvi əhəmiyyətinə inanaraq, cəzadan azad olunacaq şəxslərin qanunlara dönmədən əməl edəcəklərinə və dövlətimizin inkişafına öz töhfələrini verəcəklərinə ümid edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev amnistiya elan edilməsi təşəbbüsünü irəli sürüb.

Amnistiya aktının layihəsinə əsasən, Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüş əməliyyatlarında, o cümlədən Vətən müharibəsində və 2023-cü il sentyabrın 19-20-də keçirilmiş antiterror əməliyyatında iştirak etmiş şəxslərin, eləcə də bu əməliyyatlarda həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumlarının, Ermənistan Respublikasının mülki əhaliyə qarşı hərbi təxribatı nəticəsində əlil olmuş şəxslərin, habelə qadınların, 60 yaşına çatmış şəxslərin, cinayət törədərkən yetkinlik yaşına çatmayanların və digər şəxslərin cəzadan və ya cinayət məsuliyyətindən azad edilmələri nəzərdə tutulur. Bununla yanaşı, layihəyə əsasən, böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət, habelə ehtiyatsızlıqdan cinayət törətdiklərinə görə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş bir sıra şəxslər cəzadan azad ediləcək və ya cəzalarının çəkilməmiş hissəsi azaldılacaqdır.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan Respublikasının Milli Məclisinə təqdim olunan Amnistiya aktının tətbiq ediləcəyi şəxslərin, o cümlədən azadlıqdan məhrumetmə cəzasından azad ediləcək məhkumların sayına görə ən böyük amnistiya olacağı ehtimal edilir. Belə ki, amnistiya aktının ümumilikdə 20 mindən çox şəxsə şamil ediləcəyi gözlənilir. Bunlardan 5 mindən çox məhkumun azadlıqdan məhrumetmə cəzasından azad ediləcəyi, həmin cəzaya məhkum olunmuş 3 mindən artıq şəxsin cəzasının azaldılacağı, 7 mindən çox məhkumun azadlığın məhdudlaşdırılması cəzasından, 4 minə yaxın məhkumun azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan və ya şərti tətbiq edilmiş cəzalardan, habelə mindən çox şəxsin cinayət məsuliyyətindən azad ediləcəyi proqnozlaşdırılır.

### 175 nəfər cəzanın çəkilməmiş hissəsindən azad edildi

Məlumdur ki cari ildə 28 May Müstəqillik Günü ərəfəsində Prezident İlham Əliyev növbəti dəfə humanizm dəyərlərini rəhbər tutaraq "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında Sərəncam imzalamışdı. Sərəncam çoxsaylı ailələrə sevinc bəxş etdi. Məhkum olunmuş bir sıra şəxslərin, onların ailə üzvlərinin, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin Azərbaycan Respublikasının Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxaraq, məhkumların şəxsiyyətini, səhhətini, ailə vəziyyətini, törətdikləri cinayətlərin xarakterini və ictimai təhlükəlilik dərəcəsini, cəza çəkdikləri müddəti və həmin müddətdə davranışlarını nəzərə alaraq daha bir humanist addım atıldı. Cinayət qanunvericiliyinə əsasən, əfvetmə Prezident tərəfindən həyata keçirilir və bu aktla məhkum olunmuş şəxs ya cəzanın qalan hissəsini çəkməkdən azad edilə bilər, yaxud ona təyin olunmuş cəzanın müddəti azaldıla bilər və ya belə şəxsin cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilə, habelə cəzasını çəkmiş şəxsin məhkumluğu götürülə bilər.

Prezident İlham Əliyevin sözügedən əfv Sərəncamı ilə 175 nəfər cəzanın çəkilməmiş hissəsindən azad edilib. Azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş 25 nəfərin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb, azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş və cəzası şərti tətbiq edilmiş 1 nəfər, azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş və cəzalarının çəkilməsi təxirə salınmış 2 nəfər cəzadan azad edilib.

Bundan başqa, azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 10 nəfər cəzanın çəkilməmiş hissəsindən azad edilib, azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 2 nəfərin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb, islah işləri cəzasına məhkum edilmiş 4 nəfər cəzanın çəkilməmiş hissəsindən, cərimə cəzasına məhkum edilmiş 1 nəfər cəzadan azad edilib.

### 7 AMNİSTİYA AKTI VƏ 32 ƏFV FƏRMANI

Azərbaycanda bu humanist ənənənin əsasını Ümummilli Lider Heydər Əliyev qoyub. Ulu Öndər hakimiyyətə gəldikdən sonra əfv və amnistiya təsisatları yaradılıb, 1995-2003-cü illərdə 7 amnistiya aktı və 32 əfv fərmanı qəbul edilib. Ulu Öndər tərəfindən imzalanan əfv fərmanları ilə üç mindən artıq şəxs bağışlanaraq cəzalarından azad edildilər. Bu fərmanlar ilə 3 mindən artıq şəxs bağışlanaraq cəzalarından azad olundu. Ulu Öndər Heydər Əliyevin böyük humanistlik nümayiş etdirərək, imzaladığı əfv fərmanları ilə 1994-1995-ci illərdə dövlət çevrilişi cəhdlərində iştirak edən insanların da bir qismi bağışlanıb. Onu da xüsusi olaraq vurğulayaq ki, Ulu Öndər Heydər Əliyevin humanizminin nəticəsi olaraq ölkəmizdə ölüm hökmü də aradan qaldırıldı. 1998-ci il fevralın 10-da



Azərbaycanda ölüm hökmü ləğv edildi. Ümummilli Lider Heydər Əliyev 1998-ci il fevralın 3-də Azərbaycan Respublikasının Milli Məclisinə tarixi müraciətində insan həyatının ən ali dəyər olduğunu, yaşamaq hüququnun hər bir insanın təbii haqqı olduğunu vurğulamışdır. Ölüm hökmünün insan ləyaqətinə və ümumən insan hüquqları ideyasına zidd olduğunu bildirərək Ümummilli Liderimiz ölüm hökmünün tətbiqini qeyri-insani və qəddar tədbir kimi qiymətləndirmişdir. Humanizm, ədalət və azadlıq kimi uca ideallara söykənən, Ulu Öndər tərəfindən 1998-ci ildə irəli sürülən təşəbbüs sayəsində Azərbaycan Şərqdə ölüm hökmünü ləğv edən ilk ölkə tarixdə imza atdı. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra məhz Ulu Öndərin sayəsində ölkəmizdə hüquq, sosial və iqtisadi sahədə ardıcıl, məqsədyönlü islahatların həyata keçirilməsi, insan hüquqlarına dair strateji əhəmiyyətli sənədlərin qəbul olunması insan hüquqlarının müdafiəsində yeni və sistemli təcrübə formalaşdırdı. Belə ki, Ulu Öndərin "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 22 fevral 1998-ci il tarixli Fərmanı ilə insan hüquq və azadlıqlarının təmini istiqamətində müəyyənləşdirilən strateji məqsədlər insan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının hazırlanması, insan hüquqları üzrə səlahiyyətli Müvəkkil təsisatının yaradılması, əhalinin müxtəlif qruplarının hüquqlarının daha səmərəli təmin olunmasına dair təkliflərin verilməsi və s. bu istiqamətdə görülən işlərin insan amilinə söykəndiyini təsdiq edirdi.

### HUMANİZM ƏNƏNƏLƏRİNİN TƏZAHÜRÜ

Ümummilli Liderin siyasətini davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev humanizm ənənələrini yüksək səviyyədə davam etdirərək, bir sıra əfv və amnistiya barədə sərəncamlar imzalayıb. 2007-ci ildə Azərbaycanın Birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Milli Məclisin qəbul etdiyi "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş amnistiya haqqında" qərar da Ulu Öndərin əsasını qoyduğu humanizm ənənələrinin davamının təzahürüdür. Daha sonra 2009, 2013, 2016-cı illərdə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın irəli sürdüyü təşəbbüslər nəticəsində qəbul edilən amnistiya aktları insanların sevincinə səbəb oldu. 2016-cı ilin amnistiya aktı 10.000-dən çox məhkumu əhatə etdi və 3.000-ə yaxın şəxs penitensiar müəssisələrdən buraxıldı.

### Müstəqillik tarixində ən böyük əfv aktı

Prezident İlham Əliyevin 2003-cü ildən başlayaraq, əfv haqqında imzaladığı fərman və sərəncamlar minlərlə məhkumun əfv olunmasına səbəb olub. Prezident İlham Əliyevin 2023-cü il mayın 8-də "Məhkum edilmiş bir sıra şəxslərin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə əfv olunması haqqında" Sərəncamı müstəqillik tarixində ən böyük əfv aktı idi və humanizm prinsipinin aliliyini təzahürünə çevrildi. Sərəncama əsasən, 801 məhkum əfv olundu, onlardan 463 şəxs azadlıqdan məhrum etmə cəzasından, 220 şəxs azadlıqdan məhrum etmə cəzasının çəkilməmiş hissəsinin yarısından, 118 nəfər azadlıqdan məhrum etmə ilə bağlı olmayan digər cəzalardan (azadlığın məhdudlaşdırılması, islah işləri, cərimə cəzaları və cəzaya şərti məhkum edilmiş şəxslər) azad edildi. Xüsusilə qeyd etmək lazımdır ki, əfv edilmiş məhkumlardan 14-ü əcnəbi idi.

Azərbaycan Prezidenti tərəfindən həyata kecirilən tədbirlər bir daha göstərir ki, vətəndaş amili dövlət başçısının həyata keçirdiyi siyasətin mərkəzində dayanır. Əfvetmə sərəncamları yalnız hüquqi bir addım deyil, həm də dövlətin insan ləyaqətinə, mərhəmətə və anlayışa verdiyi önəmin göstəricisidir. Bu aktlar cəmiyyətin harmoniya içində yaşamasına, cinayət törətmiş şəxslərin islah olunmasına və cəmiyyətə inteqrasiyasına imkan yaratmaqla, dövlətin cinayət törətmiş şəxslərə qarşı mərhəmət və insanpərvərlik nümayiş etdirməsinin bir forması kimi çıxış edir. Beləliklə, əfv sərəncamları humanizm prinsipinin praktiki tətbiqi olaraq, dövlətin ədalət və insan hüquqlarına olan sadiqliyini nümayiş etdirir.

Dövlət başçısının humanist addımları Azərbaycan ictimaiyyətinin nümayəndələri tərəfindən çox yüksək qiymətləndirilir.

***Zümrüd BAYRAMOVA***

# YAP Sədrinin müavini Tahir Budaqov Türkiyədə səfərdə olub







*Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) dəvəti ilə 15 dekabr - Dünya Türk Dili Ailəsi Günü münasibətilə Ankara şəhərində keçirilən tədbirdə iştirak edib.*





Türkiyə Respublikasının Prezidenti, AK Parti Sədri Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə keçirilən tədbirdə partiyanın "Türk Dünyası Strateji Baxış Sənədi" təqdim olunub.

Tədbirdə çıxış edən AK Parti Sədrinin Türk dövlətləri ilə əlaqələr üzrə müavini, Türkiyə Böyük Millət Məclisinin (TBMM) üzvü Kürşad Zorlu konsepsiyada qarşıya qoyulan əsas hədəfin türk dövlətləri arasında bütün səviyyələrdə əlaqələrin daha da möhkəmləndirilməsi və Türk dünyasının ortaq gələcəyinin formalaşdırılması olduğunu bildirib. Daha sonra Prezident Rəcəb Tayyib Ərdoğan çıxış edərək beynəlxalq müstəvidə, o cümlədən Türk dünyasında sülh və təhlükəsizlik naminə işbirliyinin önəmini nəzərə çatdıraraq xalqların rifahı və ölkələrin tərəqqisi naminə beynəlxalq hüquq normalarına əsaslanan məqsədyönlü siyasətin vacibliyinə toxunub.





Dövlət başçısı çıxışında Türk Dövlətləri Təşkilatının yaradılması və çoxşaxəli fəaliyyətinin Türk dünyasında birlik və əməkdaşlığın gücləndirilməsində müstəsna rolunu qeyd edərək "Türk Dünyası Strateji Baxış Sənədi"nin qəbul olunması ilə bu istiqamətdə çox mühüm bir addım atıldığını vurğulayıb. "Türk xalqlarının çoxəsrlik bilik və təcrübəsini özündə ehtiva edən bu sənəd növbəti yüzilliyin hədəflərinin gerçəkləşdirilməsində önəmli bir bələdçi rolunu oynayacaqdır", - deyə Rəcəb Tayyib Ərdoğan vurğulayıb.

O, ortaq türk əlifbası ilə belə bir konseptual sənədin hazırlanmasını AK Partinin qlobal məsuliyyət hissi ilə Türk dünyasında həmrəyliyi gücləndirmək iradəsinin konkret təzahürü adlandırıb: "Türk dövlətləri arasında inteqrasiyanı dərinləşdirməyi və institusional çərçivədə çoxşaxəli əməkdaşlığı gücləndirməyi hədəfləyirik. İqtisadi inkişafa, mənəvi həmrəyliyə nail olmaq, strateji əməkdaşlığı və regional təhlükəsizliyi təmin etmək gələcəyə baxışımızın mərkəzində duran əsas məqsədlərdir. Sənədi hazırlayarkən mövcud beynəlxalq müqavilələri, ikitərəfli və çoxtərəfli əməkdaşlığı, qlobal prosesləri nəzərə almışıq. Eyni zamanda, Türk dünyasında siyasi və iqtisadi transformasiyaları, ölkələrimizin xarici siyasət perspektivlərini diqqət mərkəzində saxlayaraq milli maraqları rəhbər tutmuşuq".

Rəcəb Tayyib Ərdoğan mədəni əməkdaşlıqdan iqtisadi inteqrasiyaya, enerji təhlükəsizliyindən çoxşaxəli nəqliyyat şəbəkələrinə, təhsildən gənclər siyasətinə qədər geniş sahələri ehtiva edən sənədin türk dövlətlərinin mövcud potensialından səmərəli istifadə etməyi hədəflədiyini vurğulayıb: "Türk dünyasının gələcəyi ilə bağlı planlar ümumi təkliflərdən konkret layihələrə çevrilir. Biz koordinasiyanı gücləndirən, qərar qəbuletmə mexanizmlərini sürətləndirən və birgə layihələrin həyata keçirilməsini mümkün edən idarəetmə modelini təqdim edirik. Bu addımlar sayəsində əməkdaşlığımız daha sistemli olacaq, qərarlar operativ və effektiv şəkildə icra ediləcək".

Türkiyə Prezidenti BMT-nin mədəniyyət agentliyi olan UNESCO-nun Səmərqənddə keçirilən Baş Konfransının qərarı ilə 15 dekabrın Dünya Türk Dili Ailəsi Günü elan olunmasının əhəmiyyətinə toxunaraq bu xüsusda türk dövlətlərinin qarşısında duran vəzifələrə diqqəti cəlb edib.

Səfər çərçivəsində YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov AK Parti Sədrinin Türk dövlətləri ilə əlaqələr üzrə müavini, TBMM-in üzvü Kürşad Zorlunun adından tədbir iştirakçılarının şərəfinə verilən rəsmi ziyafətə də qatılıb.



# Haradasan, ay qonşu?..

**MƏTANƏT**

***Biz gözümüzü dünyaya açandan qonşularımızın olduğunu görmüşük. Onlarla, necə deyərlər, bir evli olmuşuq. Hər bir işin birlikdə həllinə çalışmışıq. Qonşu evində nə isə olmayanda qonşuya diləyə gedib və sanki öz evindən götürübmüş kimi, həmin istədiyini götürüb gətirib, işi yarımçıq qalmayıb. Eləcə də digər qonşu, eynilə...***

Qonşuluq, eyni zamanda, kollektiv əməyin yaşadılması forması olub. Qonşu kişilər yığışıb birlikdə arx çıxarmağa, su çəkməyə gedərdilər. Toy, yas mərasimlərinə də birlikdə yollanardılar. Səhərdə, axşamda işləri olmayanda yığışıb birinin həyətində nərd oynayar, çay içərdilər.Qonşu qadınlar bir-birinə təndirdə çörək bişirməkdə iməci olardılar. Birlikdə xalça-palaz toxuyar, qışa azuqə hazırlayardılar.

Söhbətin bu yerində " Tək əldən səs çıxmaz" deyimini xatırlayıram. Həqiqətən də biz gözümüzü açıb bu deyimin canlı şahidi ola-ola böyümüşük. Qonşuların birlikdə əməyini, toy-yas mərasimlərində, Novruz bayramında birlikdə iştirakını, bir-birinə can yandırmasını görərək, həqiqətən də, "tək əldən səs çıxmaz" məsəlinin nə qədər düzgün və yerində söyləndiyini təsdiq etmişik.

Qonşuların bir həyətə yığışıb tut çırpmasını, samovar salıb çay süfrəsi ətrafında bir ailənin üzvü kimi deyə-gülə çay içməsini kim görməyib? Qurban bayramında bütün qonşuların yığışaraq qurbanlıq aldığını, kəsib, paylara böldüyünü, Novruz bayramı öncəsi ilaxır çərşənbədə yandırmaq üçün tikanın, çör-çöpün birlikdə toplanmasını, tonqal ətrafında deyib-gülməyi, rəqs etməyi, birlikdə tonqalın üzərindən atlayıb "ağırlığım-uğurluğum odlara" deməsini kim görməyib, eşitməyib?

Bir xəstə olanda qonşuların yığışıb ona baş çəkməyə, əsgərliyi bitirib gələn qonşu uşağının görüşünə getməsini, nişanda, toyda qohum gəlib çıxanadək qonşuların bütün işlərdə ev sahibinə kömək göstərməsini necə, görməyən olubmu?

Analarımız qonşu qadınlarla qonşuluqdan əlavə rəfiqə idi. Axşamçağı bulaq başı onların görüş yeri olub. Bir-biri ilə dərdləşib, həm yaxşı, həm də pis olanları bölüşüblər. Yaşca böyüklər kiçik olanlara yol göstərib, səbirli olmağı məsləhət bilib. Bilmədiyi işi öyrədib. Yeri gələndə evinə gedib ev işlərində kömək edib ki, əliuşaqlıdır, çatdıra bilmir.

Qonşu qadınlar evdə bişirdikləri yeməkdən, şirniyyatdan həmişə yaxın qonşulara pay tutublar. Ona görə ki, axı bir evdə bişənin ətri həyətə yayılır, oradan da qonşunun evinə. Bu məqamlara fikir verən qadınlarımız belə incə dəyərlərin də təməlini qoyub, övladlarına da bütün bunlara riayət etməyi məsləhət görüblər.

Bir sözlə, qonşu kişilər bir-birinə ata-qardaş, qadınlar isə ana-bacı olublar. Bu yaxın münasibətlər isə təbii ki, hörmət hissini də aşılayacaqdı. Dəfələrlə olurdu ki, uşaqların bir-biri ilə sözü düz gəlmirdi, dalaşırdılar. Qonşu kişi və qadınlar onları elə başa salırdı ki, bir azdan sonra onlar heç nə olmayıbmış kimi bir yerdə oynamağa başlayırdı.

Bütün bu münasibətlər qonşuların biri-biri ilə qohum olmasına da şərait yaradırdı. Onlar elçi gedir, qız alır, qız verir, qohum olurdu. Beləliklə, dünənki qonşular yeni qohumlara çevrilirdi. Uzaqdan da bu qonşuların birinin qızını almaq istəyənlər yenə də qonşuları soraqlayıb tapır, ondan həmin adamın xasiyyətini, yaxşısını-pisini xəbər alırdı. Bax, qonşuluq belə dəyərlər üzərində inkişaf edirdi.

Belə bir deyim də var ki, uzaq qohumdansa, yaxın qonşu yaxşıdır. Bax, bu deyim mehriban qonşuluq münasibətlərindən yaranan bir deyimdir. Bunun kimi neçə-neçə deyimlər də formalaşmışdır qonşuluqla bağlı. Hər biri də real qonşuluq münasibətlərinə söykənən deyimlərdir. Lakin çox təəssüf ki, artıq qonşuluq günümüzdə əvvəlki illərdə olduğu qədər deyil. İndi yuxarıda sadaladığım münasibətlər demək olar ki, qalmayıb. Odur ki, gözəl bir ənənə-qonşuluq ənənəsini itirməkdəyik.

Hələ qonşuluqla bağlı nə qalıbsa, rayonlarda qalıb, şəhərlərdə bu münasibətlər çoxdan bitib. İndi bir binada yaşayan qonşular bir-birinə Allahın salamını belə vermir. Liftə daxil olursan, salam verirsən, alan yoxdur, "sabahınız xeyir" deyirsən, heç kimdən səs çıxmır. Bax, budur şəhərlərdəki qonşuluq münasibəti. Odur ki, haradasan ay qonşu, deyək. Onları səsləyək. Bəlkə səsimizi eşidib əvvəlki münasibətləri xatırlayan qonşular olacaq. İtirməyək qonşuları və qonşuluğu...

# 2026-cı ildə Azərbaycan dövləti və xalqı üçün uğurlu olacaq



Tam qətiyyətlə və əminliklə demək olar ki, növbəti 2026-cı ildə Azərbaycan dövləti və xalqı üçün uğurlu illərdən olacaq. Çünki Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu və Fateh Sərkərdə, Prezident İlham Əliyevin davam etdirdiyi siyasət bunu deməyə əsas verir. 2026-cı il üçün əhalinin gəlirləri daha da artacağı, məşğulluğu təmin ediləcəyi, dövlətin bütün sahələr üzrə mövqeləri möhkəmlənəcəyi proqnozlaşdırılır. "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsinin parlament tərəfindən qəbul edilməsi əminlyi daha da möhkəmlənmiş olur. Nəzərə almaq lazımdır ki, qəbul edilən 2026-cı il üçün dövlət büdcəsinin gəlirləri 38609,0 milyon manat proqnozlaşdırılır ki, bu da 2025-ci ilin proqnozu ilə müqayisədə 253,0 milyon manat və yaxud 0,7 faiz, 2024-cü ilin icrası ilə müqayisədə isə 1447,2 milyon manat və yaxud 3,9 faiz çoxdur. Dövlət büdcəsinin xərcləri 41703,6 milyon manat proqnozlaşdırılır ki, bu da 2025-ci ilin proqnozu ilə müqayisədə 296,0 milyon manat və yaxud 0,7 faiz, 2024-cü ilin icrası ilə müqayisədə isə 3990,0 milyon manat və yaxud 10,6 faiz çoxdur. Dövlət büdcəsi kəsirinin yuxarı həddi 3094,6 milyon manat və ya ÜDM-in 2,3 faiz səviyyəsində proqnozlaşdırılır. 2026-cı il dövlət büdcəsinin gəlirləri 38609,0 milyon manat məbləğində nəzərdə tutulur ki, bu da ÜDM-in 28,8 faizi həcmində olmaqla, 2025-ci ilin proqnoz göstəricisi ilə müqayisədə 253,0 milyon manat və yaxud 0,7 faiz, 2024-cü ilin icrası ilə müqayisədə isə 1447,2 milyon manat və yaxud 3,9 faiz çoxdur. 2022-ci illə müqayisədə 2026-cı ildə dövlət büdcəsinin gəlirləri 7929,4 milyon manat və ya 25,8 faiz artıb.

### Uğurların təməlində müdrik siyasət dayanır

2026-cı il üçün əhalinin gəlirlərinin artacağı proqnozlaşdırılır. 2026-cı ilin dövlət büdcəsində əməyin ödənişi xərclərinə 10247,6 milyon manat (2025-ci illə müqayisədə 524,7 milyon manat və ya 5,4 faiz çox) və ya xərclərin 24,6 faizi həcmində, malların (işlərin və xidmətlərin) satın alınmasına 7038,5 milyon manat (2025-ci illə müqayisədə 1529,1 milyon manat və ya 27,8 faiz çox) və ya xərclərin 16,9 faizi həcmində, faizlər üzrə ödənişlərə 1380,6 milyon manat (2025-ci illə müqayisədə 80,6 milyon manat və ya 6,2 faiz çox) və ya xərclərin 3,3 faizi həcmində, subsidiyaların ödənilməsinə 1071,4 milyon manat və ya xərclərin 2,6 faizi həcmində, qrantlar və digər ödənişlərə 3308,1 milyon manat və ya xərclərin 7,9 faizi həcmində, sosial ödənişlərə 3433,6 milyon manat (2025-ci illə müqayisədə 68,9 milyon manat və ya 2,0 faiz çox) və ya xərclərin 8,2 faizi həcmində, dövlət icbari şəxsi sığorta xərclərinə 62,1 milyon manat (2025-ci illə müqayisədə 11,1 milyon manat və ya 21,6 faiz çox) və ya xərclərin 0,1 faizi həcmində, qeyri-maliyyə aktivlərinin alınmasına 13901,8 milyon manat və ya xərclərin 33,3 faizi həcmində, maliyyə aktivləri üzrə əməliyyatlara 183,0 milyon manat və ya xərclərin 0,4 faizi həcmində, öhdəliklər üzrə əməliyyatlara 1077,0 milyon manat və ya xərclərin 2,7 faizi həcmində vəsait nəzərdə tutulub. Xərclərin ünvanlılığının daha da artırılması və aidiyyəti xərc maddələrində proqnozlaşdırılması həsabına "Sair xərclər" maddəsi üzrə 2025-ci illə müqayisədə 2026-cı ilin dövlət büdcəsində 225,2 milyon manat və ya 17,6 faiz az vəsait proqnozlaşdırılır.

2026-cı il üçün dövlət büdcəsi kəsirinin yuxarı həddi 3094,6 milyon manat məbləğində nəzərdə tutulur. Kəsirin ÜDM-də xüsusi çəkisi 2,3 faiz olmaqla cari ilin səviyyəsindədir. Kəsirin maliyyələşdirilməsi özəlləşdirmədən daxilolmalar, daxili və xarici borclanma və 2026-cı il 1 yanvar tarixinə dövlət büdcəsinin vahid xəzinə hesabının qalığı hesabına həyata keçiriləcək.

Bütün bu və digər göstəricilər onu deməyə əsas verir ki, 2026-cı il millətimiz və dövlətimiz üçün uğurlu illərdən biri kimi yaddaşlara həkk olunacaq, həm də Azərbaycanın dünya miqyasında mövqeləri daha da möhkəmlənəcək. Həyata keçirilən siyasət və əldə olunan nailiyyətlər zamanında Dahi Öndərimiz Heydər Əliyevin dediyi "Azərbaycan dünyaya günəş kimi doğacaq" tarixi kəlamı öz real təsdiqini tapdığını deməyə əsas verir. Təbii ki, uğurlarımızın ən yüksək zirvəsi 30 il işğal altında olmuş torpaqlarımızın 44 günlük Vətən müharibəsi ilə azad edilməsidir. Azərbaycan ordusu, Ali Baş Komandan, Fateh Sərkərdə İlham Əliyevin rəhbərliyi ilə özlərini qüdrətli sərkərdə, məğlubedilməz ordu kimi təqdim edən ordunun bacarmadığını 44 günlük Vətən Müharibəsində reallaşdırdı. 2020-ci il sentyabrın 27-sində başlayan 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Ordusu Fateh Sərkərdə İlham Əliyevin rəhbərliyi ilə Qarabağın tacı sayılan Şuşa şəhəri daxil olmaqla Cəbrayıl, Fizuli, Qubadlı, Zəngilan və digər rayonlarını, o cümlədən Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini, Tərtər rayonunun Suqovuşan kəndini və ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi.

### Tarix yazan Lider

2020-ci il noyabrın 8-də Şuşanın işğaldan azad edilməsi ilə Ermənistan məğlubiyyətini qəbul edib. Yəni Ermənistan Azərbaycan ordusunun surətli hücumu qarşısında duruş gətirməyəcəyini başa düşərək ağ bayraq qaldırıb. Noyabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında Bəyanat imzalanıb. Üçtərəfli Bəyanatın imzalanmasının ardından Azərbaycan Prezidenti, fateh Sərkərdə İlham Əliyev qalib Azərbaycan xalqına müraciət edib. Ali Baş Komandan müraciətində üçtərəfli Bəyanatın tarixi əhəmiyyəti olduğunu bildirib: "Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaq. Bu bəyanat bizim şanlı qələbəmizdir. Şadam ki, bu gün bu müjdəni Azərbaycan xalqına verirəm".

Prezident İlham Əliyev qələbənin əldə olunmasında Azərbaycan xalqının birliyinin mühüm rol oynadığını da vurğulayıb: "Bu günlərdə biz Azərbaycan xalqının birliyini gördük. Bütün bölgələrdən ordumuza dəstək gəldi....Bir daha gördük ki, ölkəmiz və xalqımız nə qədər gözəl ölkədir və gözəl xalqdır. Ölkəmizdə yaşayan bütün millətlərin nümayəndələri, bütün dini konfessiyaların nümayəndələri cəsarət göstərərək, düşmənlə vuruşaraq Azərbaycanın ərazi bütövlüyünü bərpa etdilər. Bu, bizim böyük sərvətimizdir, böyük dəyərimizdir. Mən bunu dəfələrlə demişəm. Ermənistan bu xoşbəxtlikdən məhrumdur. Çünki monodövlətdir, orada ermənilərdən başqa heç kim yaşamır. Avrasiyada, bizim bölgədə başqa belə ölkə tapmaq mümkün deyil. Çünki heç kim orada yaşaya bilmir. Ya onları qovurlar, azərbaycanlılar kimi etnik təmizləməyə məruz qoyurlar, ya da ki, başqa millətin nümayəndəsi orada yaşaya bilmir, sıxışdırırlar, sıxışdırırlar, sıxışdırırlar. Amma bizim üstünlüyümüz bax, bundadır, çoxmillətli, çoxkonfessiyalı Azərbaycan bu müharibədə də özünü göstərdi, bütün xalqların nümayəndələri birlik göstərdilər, qəhrəmanlıq göstərdilər. Bir daha demək istəyirəm ki, bu müharibə bir çox məsələlərə bir daha aydınlıq gətirmişdir".

### Xalqa qürur yaşadan Lider

2023-cü ilin martında Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri Şuşa istiqamətində təxribatlar törətmiş, aprel və may ayında isə şərti dövlət sərhədi istiqamətində Azərbaycan Ordusunun mövqeləri atəşə tutulmuşdur. Qarabağdakı erməni separatçılarına silahı yerə qoymaq və təslim olunmaları üçün xəbərdarlıqların edilməsinə baxmayaraq nəticə olmadı. Arayik Artunyan, Vardanyan, Saakyan, Qukasyan və digər separatçılar ordumuza və mülki əhaliyə qarşı terror əməllərini həyat keçirirdilər. "Fərrux", "Qisas" və bu kimi digər hərbi əməliyyatlar belə, separatçılar üçün dərs olmadı. Əksinə xarici güclərə arxalanaraq humanitar yönlü "Laçın" yolundan hərbi yüklərin daşınmasını təşkil edir, mülki insanlarımıza atəş açırdılar. Təbii ki, separatizm uzun çəkə bilməzdi. Nəhayət, bütün bu qanunsuz əməllərin qarşısının alınması üçün 2023-cü il aprelin 23-də Azərbaycan Dövlət Sərhəd Xidməti 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata zidd olaraq Ermənistandan Azərbaycan ərazisində olan qeyri-qanuni erməni silahlı dəstələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınmasının qarşısının alınması məqsədilə Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında "Laçın" Nəzarət-Buraxılış Məntəqəsi yaradıldı. Bununla da separatçılara Ermənistandan silah sursat daşınmasının qarşısı alındı. Lakin Xankəndində ki terrorçu dəstə hərəkətə keçərək ordumuza qarşı açıq terror aktları həyata keçirməyə cəhd göstərdi. Bu zaman Azərbaycan sərt cəza tədbirləri

2023-cü il sentyabrın 19-da başlayan və 23 saat çəkən lokal antiterror tədbirləri ilə separatizm tamamilə məhv edildi. Separatçıların əsas başçıları isə hüquq -mühafizə orqanları tərəfindən həbs edilərək istintaqa təhvil verildi. Hazırda onların Bakı Hərbi Məhkəməsində məhkəmələri keçirilir. Qarabağ isə yenidən qurulur və qurulduqca daha da gözəlləşir. Təmir, tikinti və bərpa işlərindən sonra insanlar öz dogma yurd -yuvalarına qayıdırlar. Artıq 5 ildir ki, insanlar yeni ili dogma ocaqlarında qeyd edirlərlər. 2026-cı il də və növbəti illəri, ümumilikdə Azərbaycan dövləti durduqca insanlar Qarabağda yaşayacaq və yaradacaq, o bölgəni inkişaf etdirəcəklər.

***İLHAM ƏLİYEV***

# Böyük AMNİSTİYA - 20 mindən çox insan üçün azadlıq şansı...

Mətləb Salahov: "Prezidentin təşəbbüsü ilə 20 mindən çox şəxsə şamil ediləcək böyük Amnistiya aktı bu insanların yenidən cəmiyyətə qazandırılması baxımından olduqca önəmli addımdır"



"Prezident İlham Əliyevin "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya təşəbbüsünü ilk əvvəl mənəvi və tarixi prizmadan dəyərləndirmək vacibdir. Müstəqillik tariximizdə ilk dəfə olaraq qəbul ediləcək bu amnistiya aktı 20 mindən çox məhkumun əfv edilməsi və ya cəzasının azaldılmasını nəzərdə tutur ki, bu da ölkəmizdə tarixən mövcud olan insani dəyərlərə dair müsbət ənənənin uğurlu davamıdır. Bu, həm də Azərbaycan dövlətinin tarix boyu humanizm prinsiplərinə sadiqliyini nümayiş etdirir. Bu Amnistiya təşəbbüsü ilk olaraq neçə-neçə körpənin öz valideynlərinə qovuşması, neçə ailədə sevinc olması deməkdir. Həbsxana həyatından azadlığa qovuşmuş insanların və onların ailələrinin sevincini sözlə təsəvvür etmək mümkün deyil."

Bu fikirləri SİA-ya şərhində jurnalist-ekspert Mətləb Salahov bildirib. O qeyd edib ki, bu amnistiya aktı ilə 5 mindən çox məhkumun azadlıqdan məhrumetmə cəzasından azad ediləcəyi, həmin cəzaya məhkum olunmuş 3 mindən artıq şəxsin cəzasının azaldılacağı, 7 mindən çox məhkumun azadlığın məhdudlaşdırılması cəzasından, 4 minə yaxın məhkumun azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan və ya şərti tətbiq edilmiş cəzalardan, habelə mindən çox şəxsin cinayət məsuliyyətindən azad ediləcəyi proqnozlaşdırılır. M.Salahov diqqətə çatdırıb ki, 20 mindən çox insana şamil ediləcək bu addım həm də böyük ictimai əhəmiyyət kəsb edir: "Diqqət edin: bu sayda insanın amnistiya aktından yararlanması o deməkdir ki, bu insanlar ilk növbədə ictimai fərd olaraq yenidən cəmiyyətə qazandırılır. İnsan həyatı səhvsiz, qəzasız olmur. Bu insanlara göstərilən böyük humaniz ilk əvvəl onların ictimai həyata inteqrasiyasına, şəxsiyyət olaraq yenidən cəmiyyətdə mövqe sahibi olmalarına, öz azadlığına qovuşaraq Azərbaycan dövlətinin gələcəyi üçün yenidən faydalı vətəndaş kimi xidmət göstərmələrinə böyük imkanlar yaradır."

***Afət Tahirqızı***

# Ərzaq səbətində ən çox bahalaşan məhsullar...

***2025-ci ilin müxtəlif aylarında Azərbaycanda ümumi istehlak qiymətləri və ərzaq qrupu üzrə qiymətlər sabitən yüksək olub: məsələn, 2025-ci ilin martında qida məhsullarının illik artımı təxminən 6.5%, iyunda 7.0% səviyyəsində qeydə alınmışdı (illik CPI əsasındakı göstəricilər).***

Dövlət Statistika Komitəsi aylıq hesabatlarında 2025-ci il ərzində "qida məhsulları, içkilər və tütün" qrupunun illik artımının əsas mənbə olduğu bildirilir (ilk yarı və daha sonrakı aylar üçün 5-8% yolunda).

Ən çox qiymət artımı müşahidə olunan məhsullar: çörək və un məhsulları, makaron, bitki yağları, kərə yağı/marketin yağ məhsulları, süd və süd məhsulları (quru süd formaları), yumurta, müxtəlif tərəvəzlər (pomidor, xiyar, kartof, soğan, sarımsaq), bəzi meyvələr (sitruslar, alma, armud), ət məhsulları və balıq məhsulları, qəhvə və şokolad məhsulları. Bu siyahı bəzi aylarda fərqli olsa da (mövsümi təsirlər və idxal/yerli hasilat dəyişiklikləri ilə), bu kateqoriyalar ən çox adı çəkilənlərdir.

Ən çox bahalaşan qida məhsulları - qarabaşaq yarması, mal və qoyun əti, mal əti konservləri, balıq, yumurta, ayran, kəsmik, pendir, kərə yağı, banan, armud, fındıq, pomidor, şirin bibər, badımcan, yerkökü, kartof və şokolad olub.

SİA mövzu ilə bağlı araşdırma edib.



Maraqlıdır ki, inkişaf etmiş ölkələrdə



əhalinin xərclərində ərzağın payı adətən 8-10% civarındadır. Bəzi ölkələrdə bu göstərici bir qədər yüksək ola bilər. Məsələn, inflyasiyanın yüksək olduğu Türkiyədə ev təsərrüfatlarının istehlak xərclərinin 22,8%-i qida və alkoqolsuz içkilərə gedir. Gəlir səviyyəsi artdıqca bu nisbət ciddi şəkildə dəyişir: ən aşağı gəlir qrupunda ərzaq xərcləri ümumi istehlak xərclərinin 36,6%-ni, ən yüksək gəlir qrupunda isə 14,5%-ni təşkil edir. Ümumilikdə, Türkiyədə qida xərcləri ikinci ən böyük istehlak kateqoriyasıdır; ən böyük xərc maddəsi isə mənzil və kirayədir.

Qida məhsullarında qiymət artımları əlbəttə ki, Azərbaycanda da baş verir. Bu proses digər ölkələrdə cərəyan edən analoji hallarla paralel şəkildə ölkəmizdə də özünü göstərir. Amma təəssüflə qeyd etmək lazımdır ki, qida məhsullarındakı qiymət artımları heç də həmişə qanunauyğun formada baş vermir. Yəni bilavasitə ərzaqların geniş çeşidli satışı ilə məşğul olan market şəbəkələri, topdan və pərakəndə satış aparanlar bəzi hallarda fürsətdən istifadə edərək "işbazlıqla" süni qiymət artımı, bahalaşma yaradırlar. Sözügedən prosesə nəzarət zamanında və qanunauyğun şəkildə edilmədikdə, aidiyyəti strukturlar tərəfindən baş verən sui-istifadə hallarına müdaxilələr olmadıqda isə ciddi problemlər yaranır. Bu halda xüsusi olaraq vurğulamaq yerinə düşər ki, gündəlik istifadədə tələbatın daha çox olduğu ərzaq çeşidlərinin satışında süni qiymət artımı yaradıldıqda vətəndaşların haqlı narazılıqları ortaya çıxır. Qiymət tənzimlənməsinin aparılmaması isə ciddi narazılıqlara səbəb olur.

### Ərzağın bahalaşması hansı risklər yaradır?

Ərzaq qiymətləri dünyada hər il bahalaşır. Azərbaycanda ərzağın və gündəlik tələbat mallarının qiymətində bahalaşma da göz önündədir.

Dövlət Statistika Komitəsinin açıqladığı rəqəmlərə nəzər salaq.

2015-2025-ci illərdə qiymətlər necə dəyişib?

Qiymət artımı və vətəndaşların gəlirləri arasında disbalans varmı?

Yaxın 10 ilin mənzərəsinə nəzər salaq. Son 10 ildə Azərbaycanda əhalinin gündəlik xərcləri və gəlirləri arasında ciddi dəyişikliklər müşahidə olunur. Ərzaq və yanacaq məhsullarının qiymətləri artıb, eyni zamanda əməkhaqqı, pensiya və müavinətlər də yüksəlib. Amma artım səviyyəsi hər sahədə eyni olmayıb.

Məsələn, son 10 ildə bir çox əsas ərzaq məhsullarının qiymətləri təxminən iki dəfə artıb:

Kərə yağı: 2015-ci ildə bir kiloqram üçün 9-12 manat arasında olmuşdusa, 2025-ci ilin birinci yarısında bu rəqəm 17-25 manat təşkil edir;

Duru yağ (1 litr): 2-4 manatdan 3-12 manata;

Çörək: 0,25-0,30 manat - 0,50-1,20 manata;

Qara çay (1 kq): 8-12 manat - 14-18 manat;

Süd məhsulları: 1-3 manat - 3-5 manat;

Ət: 8-10 manat - 17-22 manata yüksəlib.

Beləliklə, əsas ərzaq məhsullarının qiymətləri son 10 il ərzində 50-100% arasında artıb.

### Hansı ərzaqlar daha çox bahalaşıb ?!

Aşağıda həm Dövlət Statistika Komitəsinin aylıq CPI məlumatlarına, həm yerli xəbər/analitik yazılara əsaslanan, daha çox vurğulanan məhsullar və niyə artdığı barədə mənbə ilə birlikdə siyahı verilir.

### Çörək, un və makaron məhsulları

Mənbələrdə çörək və un məhsulları mart-fevral 2025 dövründə artım göstərən qruplar kimi verilmişdir. Bu, həm buğda qiymətləri, həm idxal/yarımfabrikat xərcləri, həm də enerji/daşınma xərclərinin təsiri ilə əlaqələndirilir.

### Bitki yağları, marqarinlər, kərə yağı

Bitki yağları (günəbaxan, qarğıdalı, zeytun yağları) və yağ məhsulları bir neçə ay ərzində artım göstərib - qlobal yağ və xammal qiymətlərinin dalğalanması, daxili ehtiyatlar və idxal xərcləri əsas səbəblər kimi göstərilir.

### Süd məhsulları, quru südlər (uşaq qidaları üçün də daxil olmaqla)

Xüsusilə quru süd və bəzi yağlı süd məhsulları qiymətində yüksəlmə müşahidə olunub; istehsal xərcləri və idxal komponen-



tləri rol oynayıb.

### Ət və balıq məhsulları

Ət məhsulları barədə ekspertlər yaxın aylarda da qiymət artımı riskindən danışırlar - artan yem xərcləri, dabaq xəstəlikləri ilə bağlı və tədarük məhdudiyyətləri qiymətə təsir göstərə bilər.

Tərəvəzlər və kök-sabzavatlər (xüsusən pomidor, xiyar, kartof, soğan, sarımsaq, kələm və s.)

Mövsümi tədarük dalğalanmaları və bəzi idxal məhdudiyyətləri (məsələn, kartofda idxalın azalması) səbəbindən qiymətlər qalxa bilər. Məsələn, kartof qiymətində artım və bunun səbəbləri (yerli ixrac/idxal azlığı, nəqliyyat xərcləri) yerli mediada müzakirə olunub.

Meyvələr (sitroslar, alma, armud və s.) və quru meyvə/qoz-fındıq

Sitruslar (limon, portağal, qreypfrut), həmçinin bəzi qoz-fındıq məhsulları da bahalaşma siyahısında olub.

### Çay, şokolad, meyvə şirələri

Tez-tez çəkilən kateqoriyalardır; idxal komponentləri və valyuta-əməliyyat xərcləri təsir edir.

### Qiymət artımının əsas səbəbləri

Mənbələr və iqtisadi ekspertlərin təhlilləri əsasında əsas səbəblər aşağıdakılardır:

Qlobal xammal təzyiqləri , buğda, bitki yağı, fertilizator və enerji qiymətlərinin dəyişməsi (dünya bazarı) yerli ərzaq qiymətlərinə təsir edir. 2024-2025 dövründə fertilizator və enerji qiymətlərinin dalğalanmaları kənd təsərrüfatı məhsullarının maya dəyərinə təsir edib.

Nəqliyyat və yanacaq xərcləri - yanacaq qiymətlərində artım daşınma xərclərini yüksəldir; bu da market şəbəkəsində və bazarda qiymətləri artırır (məsələn, kartof misalında istinadlar var).

Mövsümi təsirlər və yerli təklifin dəyişməsi , bəzi tərəvəz və meyvələrdə mövsümi qıtlıqlar qiymətə təkan verir; həmçinin yerli istehsalın zəifləməsi və idxal asılılığı önə çıxır.

Valyuta və idxal siyasəti - qlobal ticarət idxala bağlı xərclər, ticarət logistikasındakı çətinliklər və bəzən məhdudiyyətlər qiymətlərə əlavə təzyiq göstərir. (Ümumi iqtisadi analizlər və beynəlxalq mənbələr bunu dəstəkləyir.)

Xəstəlik riskləri (heyvandarlıq, bitki xəstəlikləri) heyvan xəstəlikləri və ya istehsalda kəsişmə hallarının nəticəsində ət və süd məhsullarında qiymət artımı baş verə bilər (ekspert xəbərdarlıqları).

### Ailə büdcəsinə təsir - risklər

Qida qiymətlərində davamlı artım az gəlirli ailələrin büdcəsini daha çox sıxır (əlavə xərclərin payı yüksəlir).

Əgər bu trend davam edərsə, istehlakçı alış vərdişləri (təcili olmayan xərclərin ixtisarı, daha ucuz alternativlərə keçid) dəyişə bilər və bu da həm tədarük zəncirinə, həm də pərakəndə bazara təsir edər (ümumi iqtisadi mənbələr və yerli nəşrlər bunu vurğulayır).

### Dövlət və ekspert reaksiyaları - mümkün siyasət addımları

Monitorinq və statistika: Dövlət Statistika Komitəsi aylıq CPI hesabatları ilə qiymət dinamikasını yayımlayır; bu məlumatlar həm hökumət, həm də biznes üçün baza rolundadır.

Market nəzarəti və ehtiyatların idarəsi: bəzi hallarda hökumət strateji ehtiyatlardan istifadə edə, idxal mexanizmini asanlaşdıra



və ya subsidiyalarla qısa müddətli rahatlama təmin edə bilər (bu addımlar digər ölkələrdə görülmüş praktikadır; Azərbaycanda da analitik qrup diskussiyaları olub).

Kənd təsərrüfatının stimullaşdırılması: dövlət daxili istehsalı artırmaq üçün dəstək paketləri və subsidiya proqramları ilə mövsümi təzyiqləri azaltmağa çalışa bilər.

### Ailələr büdcəyə necə qənaət edə bilər ?!

Aylıq ərzaq xərclərinizi kateqoriyalara bölün (əsas/ikinci dərəcəli) və əsas məhsullara büdcə prioriteti verin.

Mövsümi məhsullara üstünlük verin - mövsümi tərəvəz və meyvələr adətən daha ucuz olur.

Endirimlər və topdan satınalma imkanlarını araşdırın - uzun müddətli saxlana bilən məhsullarda (un, yağ, konservlər) qiymət fərqləri qiymət-miqdar baxımından sərfəli ola bilər.

Yerli istehsalçıların məhsullarını yoxlayın - nəqliyyat və idxal komponenti az olan kənd təsərrüfatı məhsulları bəzən daha uyğun olur.

***Günay Hacıyeva***

ARAŞDIRMA

# Əminliklə, FHN əməkdaşları!

İnsan həyatı üçün yaranan və yarana biləcək bütün təhlükəli anlarda FHN əməkdaşları vətəndaşların yanındadır. Biz onları dəhşətli yanğınlar zamanı da görmüşük, balkondan asılı qalan uşağı, qocanı, deformasiyaya uğramış nəqliyyat vasitələrindən insanları xilas edərkən də, sel-daşqınların vurduğu zərərləri aradan qaldırarkən də, suda batmaq üzrə olan insanı xilas edərkən də. Yəni hər bir təhlükəli anda ilk olaraq onlar gözə dəyir. Vəzifə başında həyatını itirən, xəsarət alan FHN əməkdaşları da az deyil. Odur ki, Azərbaycan vətəndaşı da bu qurumun əməkdaşlarına saygı ilə yanaşır. Çünki onlar vəzifə borcunu həyata keçirməklə yanaşı, həm də insanların düşdüyü ağır vəziyyətlərin şahidi olaraq ürəkağrısı keçirir, yeri gələndə onlarla birlikdə duyğulu anlar yaşayırlar.

Təhlükəsizlik dedikdə ilk göz önünə gələn qurumlardan olduğu üçün FHN-i böyüklü-kiçikli hər tədbirdə görmək olur. Buna yaxın zaman kəsiyində baş verən tədbir və hadisələrin fonunda nəzər alaq.

Ötən il ölkəmizdə keçirilən Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı (COP29) zamanı nazirliyin bütün qüvvələri səfərbər olunaraq obyektlərin, o cümlədən tədbir keçirilən məkanların, otellərin, iaşə obyektlərinin, insanların kütləvi toplaşdığı yerlərin, istirahət və ticarət mərkəzlərinin, infrastruktur və strateji obyektlərin, habelə bu obyektlərin ətrafında yerləşən bina və tikililərin yanğın, texniki, tikinti və radiasiya təhlükəsizliyi sahələri üzrə müayinə və monitorinqləri keçirildi, müvafiq tədbirlərin görülməsi təmin edildi. Həmin obyektlərdə çoxsaylı təlimlər keçirilərək fövqəladə hallarla bağlı davranış qaydalarına dair geniş maarifləndirmə işləri aparıldı. Həmçinin, tədbir ərəfəsində və tədbir günlərində mümkün fövqəladə hallara çevik reaksiya verilməsinin təmin edilməsi məqsədilə nazirliyin qüvvə və vasitələri tam hazır vəziyyətə gətirilərək gücləndirilmiş iş rejimində çalışdı. Nəticədə isə dünyanın çoxsaylı ölkəsindən gələn qonaqlar burada heç bir təhlükəli məqamla qarşılaşmadı.

2024-cü il dekabrın 25-də ”Azərbaycan Hava Yolları” aviaşirkətinə məxsus ”Embraer 190” tipli təyyarənin Aktau şəhəri yaxınlığında qəzaya uğramasından dərhal sonra Prezident İlham Əliyevin tapşırığı ilə peşəkar psixoloqlar, həkimlər xilasedicilər, həmçinin Səhiyyə Nazirliyinin peşəkar həkimlərindən ibarət qrup Fövqəladə Hallar Nazirliyinə aid zəruri vasitələrlə təchiz olunmuş təyyarə ilə Aktau şəhərinə göndərildi. Nazirliyin psixoloqları tərəfindən zərərçəkmişlərə psixoloji yardım göstərildi, həkimlər tərəfindən zərurət yarandığı təqdirdə tibbi müdaxilələr həyata keçirildi. Həmçinin, qəza baş vermiş ərazidə nazirliyin xilasediciləri tərəfindən müvafiq tədbirlər görüldü. Hətta aparılan qəza-xilasetmə əməliyyatında iştirakına görə Qazaxıstan Respublikası Fövqəladə Hallar Nazirliyinin (FHN) 10 əməkdaşı Azərbaycan Respublikasının fövqəladə hallar naziri Kəmaləddin Heydərov tərəfindən ”Əməkdaşlığa görə” döş nişanı ilə təltif olundu.



FHN əməkdaşlarının nəinki ölkəmizdə böyük məsuliyyətinin, yeri gələndə qonşu yardımına da əzmlə getdiyinin şahidi olmuşuq. 2017-ci ilin avqust ayında Gürcüstanın Borjomi-Xaraqulsk qoruğunda baş vermiş meşə yanğınlarının söndürülməsinə dövlətimizin başçısının tapşırığına əsasən FHN-nin 22 texnikası, o cümlədən 1 helikopteri və 131 nəfər canlı qüvvəsi cəlb edilmiş və qonşu ölkəyə ezam olunmuş FHN əməkdaşları orada böyük əzmlə fəaliyyət göstərmişlər.

2023-cü il fevral ayının 6-da Türkiyənin Kahramanmaraş, Hatay, Adıyaman, Qaziantep, Osmaniye, Adana, Şanlıurfa, Malatya, Diyarbəkir, Kilis və Elazığ bölgələrində baş verən 7,7 və 7,6 bal gücündə zəlzələ miqyasına, dağıntılara və insan itkisinə görə əsrin fəlakəti kimi xarakterizə edilir. Həmin vaxt dövlət başçısının göstərişinə əsasən, fəlakət zonasına ilk olaraq Azərbaycanın FHN xilasediciləri çataraq dağıntılar altında qalan insanları çıxarmağa başladılar. Azərbaycandan göndərilən 669 xilasedici Hatay, Antakiya, Kahramanmaraş, Adıyaman və digər şəhərlərdə xilasetmə əməliyyatlarında fəal iştirak etdi. Xilasedicilərimiz 53 nəfəri xilas edib, dağıntılar altından 780 cəsədi çıxararaq yaxınlarına verdi.

FHN əməkdaşları Türkiyədə eyni zamanda zəlzələnin dağıntılarının aradan qaldırılmasında və zərər görənlər üçün çadırların qurulmasında və digər işlərin görülməsində də yaxından iştirak edirdilər. 2020-ci ildə 44 günlük İkinci Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsində də FHN əməkdaşlarının həm bir vətəndaş, həm də vəzifəsini həyata keçirən şəxs kimi əzm və hünərini gördük. Mənfur düşmən Gəncəni, Bərdəni, Tərtəri, Ağdamı və digər əraziləri atəşə tutduğu müddətdə FHN-nin yanğınsöndürənləri atəş altında öz vəzifələrini layiqincə yerinə yetirirdilər.

FHN əməkdaşları ermənilərin mülki əhalinin yaşadığı şəhərlərə atdığı raketlər nəticəsində yaralanan vətəndaşlarımızın axtarış və xilasetmə işlərində iştirak edir, nazirliyin hərbi qulluqçu və xüsusi rütbəli əməkdaşları torpaqlarımızın işğaldan azad olunması ilə əlaqədar əməliyyatlar çərçivəsində fövqəladə halların, o cümlədən düşmənin mərmi və raket zərbələri nəticəsində yaranan dağıntı və yanğınların qarşısının alınması, nəticələrinin çevik aradan qaldırılması, zərərçəkmişlərin xilas edilməsi, təxliyəsi, döyüş bölgəsində yaşayan insanların gündəlik təminatı, habelə digər istiqamətlərdə xidməti vəzifələrini ləyaqətlə yerinə yetirirdi. İşğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi işlərində də onlar iştirak edirlər. Vətən müharibəsində Fövqəladə Hallar Nazirliyindən 19 nəfər iştirak edərək şərəfli döyüş yolu keçib və Mülki Müdafiə Qoşunlarından 1 nəfər şəhid olub. Heç şübhəsiz ki, ölkəmizdə və onun hüdudlarından kənarda baş verən təbii fəlakətlərin nəticələrinin aradan qaldırılmasında əsl fədakarlıq göstərən nazirliyin qüvvələri bundan sonra da vətəndaşlarımızın təhlükəsizliyinin keşiyində dayanacaqlar.

2005-ci il 16 dekabr tarixli Sərəncamı ilə Fövqəladə Hallar Nazirliyi yaradılıb. Ötən 20 ildə fəaliyyəti ilə sözünü deyə bilən, milli təhlükəsizlik sistemində özünü təsdiqləyən bu qurumu həm yubileyi, həm də peşə bayramı günü münasibətilə təbrik edir, xilasedicilərə bütün təhlükələrdən xilas olmalarını arzu edirik.

Bu gün ölkədə bir rəy sorğusu keçirilsə və ”insanlar fövqəladə hallarda ilk kimin gələcəyinə inamla baxa bilirlər” sualı verilsə, əminliklə deyə bilərik ki, cavab belə olacaq: FHN əməkdaşları.

***Mətanət Məmmədova***

# Avropa İttifaqı Ermənistana “əl uzadır” - əsas məqsəd nədir?

Rusiya Beynəlxalq İşlər Şurasının Proqram Meneceri Milan Lazoviç ”Moskva-Baku” portalana verdiyi müsahibədə Ermənistan-Avropa İttifaqı əlaqələrinin yeni dalğası ilə bağlı şərh verib. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Milan Svetislavoviç, Ermənistanın Baş naziri Nikol Paşinyan bir neç gün əvvəl Almaniyada rəsmi səfərdə olub. Bu yaxınlarda Ermənistan Respublikası və Avropa İttifaqı Brüsseldə Aİ ilə Ermənistan arasında Tərəfdaşlıq üzrə Strateji Gündəliyi qəbul etdilər. Kaya Kallas Aİ-nin qarşıdan gələn parlament seçkiləri qabağı mövqeyini gücləndirmək üçün Ermənistana əlavə 15 milyon avro ayırdığını açıqladı. O, həmçinin Yerevandan Rusiyaya qarşı sanksiyalar tətbiq etməsini tələb etdi. Bunların hamısı eyni zəncirdədirmi?***



- Bu, çox güman ki, Nikol Paşinyanın Qərb ölkələrindən siyasətinə sabit dəstək almaq səylərinin davamıdır. Eyni zamanda, bunun qarşılıqlı maraq olduğunu demək olar. Paşinyan Qərbin dəstəyinin onun üçün vacib olduğunu nümayiş etdirir. Aİ Cənubi Qafqazdakı bütün prosesləri izləmək və onlardan xəbərdar olmaq istəyir. Brüssel Ermənistan-Azərbaycan yolu ilə bağlı bütün məsələlərin, o cümlədən dəhlizlərin, logistikanın və sair məsələlərin nəzərə alınmadığı bir vəziyyətdə olmaq istəməzdi. Buna görə də, Paşinyan hökuməti üçün Qərbin Ermənistana marağı münbit zəmindir. Birincisi, budur.

İkincisi, Qərb dünyanın istənilən yerində, o cümlədən Cənubi Qafqazda bir növ Rusiya əleyhinə ocaq yaratmaqda çox maraqlıdır. Ermənistan Respublikası Aİ-yə inteqrasiya prosesinin başladığını elan etdiyindən bəri Brüssel mütəmadi olaraq Yerevanın peyk addımları atmasını gözləyir. ”Avropaya inteqrasiya etmək istəyirsinizsə, şərtlərimizi yerinə yetirmək və Rusiyaya qarşı sanksiyalar tətbiq etmək siyasətimizi izləmək üçün kifayət qədər addım atın”. Ermənistan Avrasiya İqtisadi İttifaqının (AİI) üzvü olduğundan, Brüssel respublika ilə Rusiya əleyhinə işləməyə xüsusi diqqət yetirir və Yerevana ”sivil icma”ya qoşulmaq istəsə, Rusiyaya qarşı sanksiyalara qoşulmalı olduğunu xatırladır.

Bəli, Paşinyan seçkilərdən əvvəl Qərbin dəstəyini qazanır; Avropaya bütün bu səfərlər həm də seçki kampaniyasının bir hissəsidir. İnanıram ki, Almaniya da, xüsusən də kansler Merzin Rusiya ilə bağlı əsəbi açıqlamalarını nəzərə alsaq, Ermənistana əlindən gələn köməyi göstərmək üçün müdaxilə edəcək. Və xatırlatmaq istəyirəm ki, Ermənistanda fəaliyyət göstərən Aİ ”monitorinq missiyası”nın əksəriyyətini Almaniya nümayəndələri təşkil edir ki, Moskva və Bakı bunu, yumşaq desək, tamamilə etibarlı hesab etmir. Və ona həmçinin Almaniyanın nümayəndəsi rəhbərlik edir. Təbii ki, Fransa Cənubi Qafqazdakı müxtəlif siyasi manipulyasiyaların ən fəal iştirakçılarından biridir. Avropa İttifaqı rəsmilərindən vaxtaşırı eşidirik ki, Ermənistana ayrılan maliyyə, digər şeylərlə yanaşı, Paşinyana informasiya dəstəyi və Ermənistanın informasiya məkanına Rusiyanın təsirini məhdudlaşdırmaq üçün istifadə olunur. Başqa sözlə, burada da Aİ-nin Ermənistanda Rusiya əleyhinə əhval-ruhiyyə aşılamaq cəhdlərini görürük.

Bu gün Ermənistan Cənubi Qafqazda Avropa bürokratiyasının maraq mərkəzidir. Müqayisə üçün, Gürcüstan Aİ-nin maraqları üçün bir vasitə olmaqdan çıxıb və daha praqmatik mövqe tutub ki, bu da ağlabatandır. Lakin Ermənistanda bir qədər əks prosesə şahid oluruq. O, yavaş-yavaş Qərbə doğru sürüşür. Bu, xüsusilə hazırkı hökumətə və onun siyasətinə aiddir, günki Ermənistan bütövlükdə hazırda olduqca bölünmüş və birliksizdir, burada hökumətin siyasətinə tamamilə zidd mövqedə olan müxalifət qüvvələri fəaliyyət göstərir.



***- Seçkilərin nəticələri müəyyən olunana qədər Paşinyanın Qərbin tələbi ilə Rusiya əleyhinə kəskin addımlar atmayacağı nəzərdə tutulurmu? Məsələn, Aİ-nin tələbi ilə sanksiyalar tətbiq etməyəcəyi...***

- Qətiyyən yox. Sanksiyalar tətbiq olunmayacaq. Həmçinin qəti bəyanatlar da minimuma endiriləcək, çünki hazırda bu, Ermənistan üçün fundamental olaraq əlverişsizdir. Paşinyan hazırda seçkilərdən sonra hakimiyyətinin davam etdirilməsi ilə bağlı qeyri-müəyyən vəziyyətdədir. Buna görə də o, ehtiyatla hərəkət edəcək. Üstəlik, yenə də Ermənistanın Avrasiya İqtisadi İttifaqına üzvlüyü kimi mühüm iqtisadi amil var. Paşinyanın Rusiya ilə körpüləri yandırmaq və Qərb həmkarlarının qucağına girmək üçün heç bir səbəbi yoxdur. Əgər Paşinyanın yeganə arzuları hazırda qarşıdan gələn parlament seçkilərində qalib gəlməyə yönəlibsə, sizcə, onun şansları nə qədərdir?

Düşünürəm ki, bu, təxminən 50-50-dir. Əlbəttə ki, bütün bunlar çox şərti xarakter daşıyır. Seçkilərə hələ xeyli vaxt var. Hazırkı baş nazirin çoxlu rəqibləri var və kilsə qalmaqalının necə bitəcəyi bəlli deyil. Əslində, Paşinyan indi hər şeyə əl atır.

***Aİ də Zəngəzur dəhlizi boyunca daha aktivləşib və artıq onlar da iştirak etmək istədiklərini iddia edirlər...***

Bəli, onlar regiondakı prosesləri idarə etmək üçün Cənubi Qafqazda mövqe qazanmaq istəyirlər. Digər məsələ isə Donald Trampın rəhbərliyi altında ABŞ-ın avropalıların orada olmasını nə dərəcədə istəməsidir. Vaşinqtonun avropalıların bu məsələdə hər hansı əsas rol oynamasını istəməsi ehtimalı azdır. Əminəm ki, amerikalılar bunu yaxından izləyəcəklər. Təbii ki, Rusiya da Avropanın iştirakında o qədər də maraqlı deyil. Ehtimal ki, İran və Azərbaycan da müəyyən dərəcədə maraqlı deyil. Bunu bu gün Brüsseldə qəbul edilmiş Avropa İttifaqı ilə Ermənistan arasında Tərəfdaşlıq üzrə Strateji Gündəliyə cavab olaraq Azərbaycan Xarici İşlər Nazirliyinin olduqca sərt şərhi sübut edir. Azərbaycan XİN-in şərhində qeyd olunur ki, sənəddə Qarabağla bağlı tamamilə qəbuledilməz istinadlar, Ermənistanın Azərbaycana qarşı hüquqi iddialarını əks etdirən bəndlər və Aİ missiyasının Ermənistan ərazisində davam edən fəaliyyəti var. Başqa sözlə, bir sıra bəndlər 8 avqustda Vaşinqtonda paraflanmış Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin mətni ilə ziddiyyət təşkil edir. Buna görə də rəsmi Bakı Yerevanın sülh niyyətlərinin səmimiliyini şübhə altına alır. Həqiqətən də, bu bəndlər Bakı üçün narahatlıq yaratmaya bilməz və Yerevanın Aİ-yə yanaşmasında şəffaflığın olmamasını göstərir.

***Tərcümə - Elçin Bayramlı***

# Media savadsızlığı nələrə səbəb olur?




*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi "istiqaməti çərçivəsində hazırlanıb*

***Xüsusilə son on ildə - sosial şəbəkə platformalarının populyarlığı artdıqdan sonra müxtəlif yaş kateqoriyalarında istifadəsində də böyük ölçüdə artım müşahidə olundu. Yaşından və statusundan asılı olmayaraq sosial şəbəkələrdə vaxt keçirənlərin sayı durmadan artır. Bəzi şəbəkələr azyaşlıların giriş məhdudiyyətini tətbiq etsə də saxta profillə daxil olan azyaşlıların sayı da kifayət qədərdir. İndi rəqəmsal media istənilən şəxsə, istənilən vaxt, istənilən yerdən tez bir zamanda məlumat paylaşmağa, başqaları ilə daim əlaqədə qalmağa imkan yaradır. Bu məlumat çoxluğu isə özü ilə istər-istəməz informasiya çirkliliyini və media savadsızlığını gətirir.***









Keçmişdə məlumatlar çap mediası, şifahi ünsiyyət və şəxsi söhbətlər vasitəsilə yavaş-yavaş yayılırdı. Bu gün rəqəmsal media qlobal xəbərlərə ani girişi, daha sürətli məlumat alma və ötürməni təmin edir. Sosial şəbəkələrin sayəsində ünsiyyət daha sürətli və daha səmərəli hala gəldi, şəbəkələr, elektron poçt və video zənglər vasitəsilə məsafələr qısaldı, vaxta qənaət edildi. Onlayn platformalar biznes, səhiyyə və təhsil sahələrində də xidmətlər təklif etdi, məsafə uzaqlığı baxımından istədiyi xidmətdən yararlana bilməyənlər üçün bu xidmətləri daha əlçatan etdi. Əvvəlki metodlardan fərqli olaraq, rəqəmsal media fikirlərin sürətli paylaşılmasına imkan verir, qlobal əməkdaşlığa təşviq edir. Sosial şəbəkə platformaları daha geniş miqyasda yaradıcılıq və qlobal şöhrət vəd edir.

Sosial şəbəkələr, sözsüz ki, ictimai fikrə təsir göstərir və yalan xəbərlərlə ictimaiyyətin diqqətini bir istiqamətdən digərinə yönləndirə bilir. Sosial media insanların inanclarının, siyasi və dini baxışlarının, milli və mənəvi dəyərlərinin formalaşmasında mühüm rol oynayır. Buna görə də, media savadlılığı cəmiyyətdə fikir formalaşmasında çox vacibdir, çünki media savadlılığı olan insanlar məlumatları tənqid, təhlil, analiz etmək bacarıqları əldə edir. Rəqəmsal dövrdə etibarlı və etibarsız mənbələri müqayisə etmək, qərəzli və ya çirkli informasiyanı müəyyən etmək üçün bu vacibdir.

Ümumiyyətlə, dezinformasiyaya məruz qalmamaq üçün media savadlı olmağın yolu şüurdan və analiz qabiliyyətindən keçir. Təkcə xəbəri oxumaqla kifayətlənmək lazım deyil, onu şüurlu, tənqidi və məsuliyyətli şəkildə analiz etmək bacarığı bizi media savadlılığı baxımından tərbiyə edir. Xəbər istehlak edərkən bu məlumatın kim tərəfindən yayımlanması, mənbənin etibarlı olub-olmamasını araşdırmaq şərtdir. Analiz etmək lazımdır ki, istehlak etdiyimiz xəbərin yayımlanmasındakı məqsəd insanları savadlandırmaqdır, yoxsa manipulyasiya etmək?

Unutmayın ki, media savadlılığı olan insan yalnız bir mənbədən yayılmış məlumata inanmaz, digər mənbələri də araşdırar, daha etibarlı mənbənin olub-olmamasını öyrənər, məlumatın səhihliyini təsdiq etmək üçün rəsmi orqanların açıqlamalarına etibar edər. Ümumiyyətlə, dezinformasiyalar adətən bir-birinə bənzəyir. Əksəriyyəti cəlbedici və şişirdilmiş başlıqla təqdim edilir, həyəcan yaradan təqdimat və musiqi ilə verilir. Gerçək informasiya təhrif edilir, kontekstdən çıxarılır.

Xüsusilə qeyd etmək lazımdır ki, süni intellektin istifadəyə verilməsindən sonra yalan informasiyaların sayında ciddi artım oldu. Onun köməyi ilə saxta görüntülər, saxta məlumatlar hazırlanır, insanlar manipulyasiya edilir. Tanınmış insanların səsindən, görüntüsündən istifadə edərək cəmiyyəti yanıldan, səhv istiqamətləndirən məlumatlar hazırlanır. Süni intellekt vasitəsi ilə saxta həkim rəyi, ekspert açıqlaması yazıla bilər, süni həkim obrazı ilə yalnış məlumatlar yayımlana bilər. Son vaxtlar dünyada tanınmış həkimlərin video görüntülərindən istifadə edərək əslində onun demədiyi sözləri onun ağzından eşitdirmək və insanların sağlamlıqları ilə oynamaq kimi ciddi bir problem də yaranıb. Süni intellektin köməyindən istifadə edərək saxta müharibə, döyüş səhnələri hazırlayaraq insanları gərginlik və narahatlıq içində saxlayanlar da kifayət qədər çoxalıb. Media savadlılığı olan istənilən insan bilir ki, qarşılaşdığı, istehlak etdiyi hər xəbər fakt deyil, hər informasiya doğru olmur. Doğru informasiyaya əlçatanlığı təmin etməyin yolu da mütləq və mütləq media savadlılığından keçir.

***Lalə Mehralı***

## FELYETON



# İkiqat "obrazovannı"lar

*15 dekabr- Dünya Türk Dili Ailəsi Gününə...*

Yaxınlarımdan birinin evində qonaq idim. Divanda uzanan oğlan anasına:

-Ay ana, o pəncərəni aç, çox istidir.

Ana pəncərəni açdı. Bir xeyli vaxtdan sonra oğlan yenidən:

-Ay ana, sən niyə pəncərəni açmısan?

-Ay oğul, bəs sən dedin də.

-Mən o xırdanı dedim ki, bir az hava gəlsin.

Ana:- Ay, düz deyirsən, skvazniyak eləyir, indicə kamarı da dolduracaq içəriyə, tamam, "qoy pəncərəni örtüm, fortuçkanı açım",- deyə pəncərəyə yaxınlaşdı.

Oğlan yenidən səsləndi:

-Ana, ayaqdasan, sən Allah, şarjım bitir, al bu telefonu, adapter otağımdadır, tax toka, bacıya mesaj yazacağam.

Ana telefonu alıb, otağa keçdi və oradan deyindiyini eşitdim:

-Yüz dəfə dedim ki, ay kişi, bir montyor gətir, bu evin tokuna baxdır, hara taxım bu telefonu axı zaryadka yığsın, razetkaların heç biri işləmir.

Ana ilə balanın bu yarı rus, yarı türk dialoqu məni yamanca təbimdən çıxardı. Birinci hirsimi oğlana tökdüm, dedim bizim vaxtımızda valideynin yanında nəinki uzanmaq, hətta onu işə buyurmaq böyük qəbahət sayılardı.

Sonra da üzümü hər ikisinə tutub, "siz bilirsiniz ki, səhərdən bəri danışdığınız on sözün səkkizi rus, türk sözləridir",- dedim. Hirslə anadan soruşdum:

-Fortuçka nə deməkdir?

-Fortuçka elə fortuçkadır da, balaca pəncərə, sənin də işin qurtarıb ey, bizə sorğu-sual edirsən.

Oğlana üz tutdum:

-Şarj nədir, adapter nədir?

Cavab verdi ki, adapter telefona şarj yığır.

Bu sorğu-sualımı görən ana mənə nə desə yaxşıdır?

-Sənin də sosyeteliyin tutmasın, gəl, çay içək.

Onlara son sözüm belə oldu: sizi gördüm, bir əsr əvvəl "Molla Nəsrəddin" jurnalında dərc olunan "Bizim "obrazovannı"lar" felyetonunu xatırladım. Hələ felyetonu da onlara nağıl etdim. Axırda da dedim ki, siz lap elə ikiqat obrazovannısınız ki

***Mətanət Məmmədova***

SƏS

17 dekabr
2025-ci il

“SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ
ABUNƏ OLMAQ İSTƏYƏNLƏR
AŞAĞIDAKI YAYIM
ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ
SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Bakıdakı yol tıxaclarına çarə nədir?

*Nəqliyyat üzrə ekspert mühüm məqamlara aydınlıq gətirdi*



“Yol tıxaclarının yaranması təkcə avtomobillərin sayının artması ilə izah oluna bilməz. Bu problem əsasən şəhərsalma planlamasının uzun illər nəqliyyat axınını qabaqlamaması, ictimai nəqliyyatın cəlbediciliyinin yetərli səviyyədə olmaması və yol infrastrukturunun mövcud tələbatı tam qarşılamaması ilə bağlıdır”. Bu sözləri SİA-ya açıqlamasında nəqliyyat üzrə ekspert Aslan Əsədov deyib.



Onun sözlərinə görə, xüsusilə iri şəhərlərdə iş yerləri, təhsil müəssisələri və sosial obyektlərin mərkəzləşməsi səhər və axşam saatlarında eyni istiqamətdə intensiv hərəkət yaradır ki, bu da tıxacları qaçılmaz edir: ”Problemin həlli üçün ilk növbədə ictimai nəqliyyat sisteminə üstünlük verilməlidir.

Sürətli və rahat avtobus xətləri, xüsusi avtobus zolaqları, metro və şəhərətrafı dəmir yolu xətlərinin genişləndirilməsi şəxsi avtomobildən istifadənin azalmasına real təsir göstərə bilər. Paralel olaraq, nəqliyyatın intellektual idarəetmə sistemlərinin tətbiqi vacibdir. Ağıllı svetoforlar, real vaxt rejimində yol hərəkətinin tənzimlənməsi və alternativ marşrutların sürücülərə operativ təqdim edilməsi axınların balanslaşdırılmasına kömək edir. Eyni zamanda parklanma siyasəti də yenidən nəzərdən keçirilməlidir. Şəhər mərkəzində nəzarətsiz və ucuz parklanma avtomobil istifadəsini stimullaşdırır. Parklanma məhdudiyyətləri və ödənişli zonaların genişləndirilməsi vətəndaşları ictimai nəqliyyata yönəldə bilər. Uzunmüddətli perspektivdə isə iş qrafiklərinin elastikləşdirilməsi, uzaqdan iş imkanlarının təşviqi və yaşayış məntəqələrinin balanslı inkişafı yol tıxaclarının azalmasında mühüm rol oynayacaq”.

*Ziya Hikmətoğlu*

## ELAN

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası aşağıdakı kafedralarda vakant yerləri tutmaq üçün müsabiqə elan edir

**Musiqi tarixi kafedrası**
Kafedra müdiri, sənətşünaslıq namizədi

**Kamera ansamblı kafedrası**
Dosent

Müsabiqə müddəti elan qəzetdə dərc edildikdən sonra bir aydır. Ərizə və sənədlər müsabiqə haqqında əsasnaməyə uyğun rektorun adına bu ünvana göndərilə bilər.

***Bakı şəhəri, Az-1014. Ş.Bədəlbəyli küçəsi 98.***

## Mərkəzi Gömrük Hospitalında belaruslu professorla görüş keçirilib



Mərkəzi Gömrük Hospitalında Belarusun Minsk Elmi-Praktiki Cərrahiyyə, Transplantologiya və Hematologiya Mərkəzinin Tibbi işlər üzrə direktor müavini, nefrologiya, böyrək əvəzedici terapiya və böyrək transplantasiyası üzrə respublika mərkəzinin rəhbəri, həkim-cərrah, tibb elmləri doktoru, professor Kaloçik Oleq Valentinoviç ilə görüş keçirilib.

Tədbirdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, t.ü.f.d., Əməkdar həkim Ceyhun Məmmədov, rəis müavini, t.ü.f.d., dosent İsmayıl Əfəndiyev, Səhiyyə Nazirliyinin Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinin İdarə heyətinin sədr müavini Günay Abbasova, Mərkəzi Gömrük Hospitalının ümumi cərrahı, transplantoloqlar Dr.Mircəlal Kazımi, Dr.Kamran Beydullayev və nefroloq Elnur Fərəcov iştirak ediblər.



Tədbirdə tərəflər arasında nefrologiya, böyrək transplantasiyası sahəsində beynəlxalq əməkdaşlıq perspektivləri, klinik təcrübə mübadiləsi, müasir müalicə və cərrahi yanaşmalar, eləcə də birgə elmi-tədqiqat layihələrinin həyata keçirilməsi imkanları ətrafında müzakirə aparılıb. Həmçinin, robotik cərrahiyyənin transplantasiya və ümumi cərrahiyyədə tətbiqi, minimal invaziv üsulların üstünlükləri, əməliyyatların dəqiqliyinin və təhlükəsizliyinin artırılması, reabilitasiya müddətinin qısaldılması məsələləri müzakirə olunub. Görüş zamanı transplantasiya sahəsində robotik texnologiyaların tətbiqi perspektivləri, həkimlərin bu sahədə ixtisasartırma və beynəlxalq təlim proqramlarına cəlb olunmasının əhəmiyyəti xüsusi vurğulanıb. Tədbir xatirə şəklinin çəkilməsi ilə başa çatıb.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3000